TOPLAYIB ALİM NƏBİOĞLU
TƏRTİB EDƏNLƏR: CANƏLİ MİRZƏLİYEV

# QIZIL SÖZ - DƏRİN HİKMƏT

*Hər çəməndən bir çiçək*

*Toplayıb tərtib edənlər:*

ALİM NƏBİOĞLU
CANALI MİRZƏLİYEV

# QIZIL SÖZ - DƏRİN HİKMƏT

***Hər çəməndən bir çiçək***

**Bakı -2003**

Naşir: *Rafiq Xan-Sayadoğlu*

Rəyçi: *professor Şahalı Həsənov*

Redaktor: *Aytən*

**Alim Nəbioğlu, Canalı Mirzəliyev «Qızıl söz – dərin hikmət», «Min bir mahnı» şirkəti, Bakı, 2003, 104 səh.**

Kitabda dərin mənalı, hikmətli sözlər, cümlələr, söz birləşmələri, atalar sözləri, xalq nəsihətləri, aforizmlər, qısa dialoqlar, dahi mütəfəkkirlərin oxucunu düşündürən yığcam fikirləri toplanmışdır.

**ISBN 995229-032-2**

**© Alim Nəbioğlu,
Canalı Mirzəliyev
«Min bir mahnı» şirkəti**

# GİRİŞ

Dərin mənası, dolğun hikməti ilə insan qəlbinə asanlıqla yol tapan müdrik kəlamlar, aforizmlər, atalar sözləri bizim üçün, xüsusilə gənclərimiz üçün əsil «ağıl mücrüsü»dür.

Hikmətli sözlər, deyimlər insanların əxlaq tərbiyəsində, onların fəal həyat mövqelərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. Müdrik sözlərə bəşər tarixinin müxtəlif dövrlərində, həmişə ehtiyac olmuşdur, indi də var və gələcəkdə də olacaqdır.

Müasir oxucu təfəkkürcə daha çox inkişaf etmişdir. Oxucu onun ağılını, emosiya-

larını zənginləşdirməyən əsərləri rədd edir. Kitab, jurnal, qəzet, radio, televiziya, elektron informasiya şəbəkəsi və başqa kütləvi informasiya vasitələrinin son dərəcə inkişaf etmiş olduğu indiki dövrdə oxucuları primitiv söz yığını ilə cəlb etmək olmaz. Hər kitab sözü, mətbu sözü oxucunun şüuruna təsir etməlidir, onu düşündürmək qüvvəsinə malik olmalıdır.

Yerində deyilmiş qiymətli, dürüst, düzgün, qızıl sözlərin dərin mənası, böyük hikməti vardır. Bir anlığa dahi Nizaminin dillər əzbəri olan misralarını xatırlayaq:

*Sözün də su kimi lətafəti var,*
*Hər sözü az demək daha xoş olar.*
*Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir su da.*

V.Şekspirin təbiri ilə desək, «Xoş söz dəmir qapılar açar». Belə bir alman atalar sözü var: «Xoş söz böyük hədiyyədən qiymətlidir».

«Söz böyük şeydir. Ona görə böyükdür ki, sözlə insanları birləşdirmək də olar,

ayırmaq da. Sözlə məhəbbət də qazanmaq olar, ədavət və düşmənçilik də» (L.N.Tolstoy).

Dəyərli söz – dərin hikmət! Söz onda qızıl olur ki, dərin məna, böyük hikmət təcəssüm etdirir. V.Q.Korolenkoya görə söz – həyatın ən böyük silahıdır. Bəs hikmət nədir? Filosofların fikrinə görə hikmət ağılın qidasıdır. Filosof Ərəstundan soruşdular: «Ağıl qüvvəti haradan alır?». Cavab verdi: «Hamı qüvvəti yeməkdən alır, ağılın yeməyi isə hikmətdir».

Bədii ədəbiyyat – söz sənətidir, latınca «litera» - sözündən gəlmişdir. Bu da hərf, yazı deməkdir. Çox zaman bədii ədəbiyyatı belletristika (fransızca «söz» və «gözəl») – yəni gözəl söz, qızıl söz adlandırırlar.

Sözün yığcamlığı, ona qənaət edilməsi ədəbi dilin mühüm xüsusiyyətidir. Başqa sözlə desək, sözlərdə yığcamlıq, fikirdə genişlik lazımdır.

Məlumdur ki, İslam haqq yoluna çağırışdır. Həzrəti Mühəmməd İlahidən aldığı kamalın qüvvəsi ilə onu yaradan Xaliqin

dilindən danışdı, haqq yoluna dönənləri şərəfləndirdi; Allahtaalanın vəhy yolu ilə ona göndərdiyi müqəddəs ayələr ayrı-ayrı surələrə bölünərək Qurani-Kərimdə toplandı.

Həzrəti Mühəmməd əleyhissəlamın söylədikləri «hədislər» kürreyi-ərzi dolaşdı. On dörd əsrdən çoxdur ki, bu hədislər nəsillərin tərbiyəsində Allah kəlamından sonra ən mötəbər mənbədir. «Hikmətə bax, gör nə demiş atalar: Qısa sözdə olar dərin mənalar» (Keykavus).

«Nitqin gücü az sözlə çox şey demək bacarığındadır» (Plutarx).

Belə bir hekayət var: «Müaviyə (Əməvilərin birinci xəlifəsi, 661-680-ci illərdə hakimiyyət başında olmuşdur) dövründə bir dəstə adam cinayət işi görür və onları öldürmək vacib olur. Müaviyə əmr edir, boyunlarını vursunlar. Bu zaman onlardan birisini boynunu vurmağa irəli gətirirlər. O kişi deyir: «Ya Əmirəlmöminin bizə nə etsəniz yeri var, mən öz günahımı boynuma alıram. Lakin Allah xatirinə, istəyirəm,

mənim iki kəlmə sözümə qulaq asıb ona cavab verəsiniz. Deyir: «De». O kişi deyir: «Bütün dünya sənin həlim və kəramətli olduğunu bilir, əgər biz bu günahı sənin qədər həlim və kərim olmayan bir padşaha versəydik, o bizə nə edərdi?» Müaviyə deyir: «Mən nə edirəmsə, o da onu edərdi». O kişi deyir: «Bəs onda sənin məharətli və kəramətli olmağının bizə nə faydası? Haman zülm, haman cəza?» Müaviyə deyir: «Sən bu sözü bir az qabaq demiş olsaydın, heç o birilərin də boynu vurulmazdı, kim qalıbsa, hamısını bağışlayıram».

Bir sıra Yaxın və Orta Şərq xalqlarının ən qədim yazılı mədəni abidəsi sayılan və yazılma tarixi eramızdan əvvəl VI əsrə aid olan «Avesta» da xeyrin şər, işığın qaranlıq üzərində qələbəsini təmin etmək üçün Zərdüştün adından bir neçə fəzilət və qəbahət irəli sürülmüşdür.

«Avesta»da bütün fəzilətlər öz başlanğıcını – «xeyir fikir», «xeyir söz» və «xeyir əməl» adlanan xeyir triadasından (xeyir üçlüyündən) götürür.

«Dədə Qorqud», «Koroğlu» dastanlarında xeyir əməllər, əxlaqi dəyərlər diqqəti cəlb edir. Bu abidələrin tərbiyəvi əhəmiyyəti misilsizdir.

Demokrit müdrüklüyü, biliyi əsas fəzilət sayır və göstərir ki, bu ata fəzilətə malik olmaq insanı bir çox qəbahətlərdən, rəzalətlərdən qoruyur. Bütün qəbahətlər biliksizlikdən, nadanlıqdan doğur. «Ağıllı, müdrik adam yaxşı bilir ki, xoşbəxtlik nə sürülərdə, nə də qızıldadır».

Eramızdan əvvəl 11-ci əsrə aid «Həyat haqqında təlim və səadət dərsi» adlı didaktik əsərdə bir çox xalq nəsihətləri toplanmışdır. Burada səmimilik, şərəf, namusluluq, əməksevərlik ən ülvi, ən yüksək fəzilət kimi tərənnüm olunur. Bu əsərin aforizmlərindən birində deyilir: «Yırtıcı varlı olmaqdansa, namuslu adam olmaq lazımdır».

Şərqin əxlaq klassiki Fəridəddin Əttar «Pəndnamə» (Nəsihətnamə) əsərində yazmışdır: «Yavrum, nəfsinin arzularına uyma, nəfsin istəkləri arxasınca getmək axmaqlıq, ona bağlı olmaq isə satqınlıqdır.

Pis nəfsin işi daima şər və fənalıqdır. Öz nəfsinlə edəcəyin dava ən böyk davadır».

«...Arif adamlara aydındır ki, (bu sözlər də onlar üçün yazılmışdır) şəfaverici nəsihət inciləri zərif ibarə sapına düzülmüş və acı məsləhət dərmanları şirin zarafat balına qatışdırılmışdır ki, insanın yorğunluğa mail olan təbiəti bu sərvəti qəbul etməkdən məhrum qalmasın» (Sədi Şirazi. «Gülüstan».

Hər nəsil dünyaya gələndə hazır məhsuldar qüvvələrlə yanaşı, hazır bilik və əxlaqi materialları da tapır və bir müddət, ta özü yenisini yaradana qədər və hətta sonralar da bunlardan istifadə edir. Əlbəttə, hər gələn nəsil Arximed qanunu kəşf etmək üçün vaxt sərf etmir, öz enerjisini irəliyə doğru yönəldir, lakin həmin qanunu kənara atmır, öz fəaliyyətində ona istinad edir.

Yeni nəsillər həyata qədəm qoyan kimi yaranmış əxlaqi anlayışları kənara atmır, ondan istifadə edir, onları yeni məzmunla zənginləşdirir.

Deyirlər, hərə öz taleyinə güvənir, za-

man isə öz işini görür.

Məlumdur ki, «Qabusnamə», «Kəlilə və Dimnə», Şeyx Sədinan «Gülüstan» və «Busitan», Şeyx Əttarın «Pəndnamə», Mişel Montenin «Təcrübələr», Nizami Gəncəvinin ölməz «Xəmsə»si və bunlara bənzər əxlaqi əsərlər yüz illər ərzində maraqla oxunmuş, neçə-neçə nəsillərin qəlbinə, zehninə hakim kəsilmişdir.

«Müdriklərin müəllimi» olan İbn Sinanın «Qanun» kitabı həm Şərq, həm də Avropa alimləri arasında sonsuz şöhrətə və hörmətə layiq bir əsər olmuşdur. Bu kitab dəfələrlə tərcümə edilmiş, ona yüzlərlə yüksək rəylər söylənmişdir. Orta əsrlərin tibb elmi və praktikasının inkişafı həmin əsərə əsaslanır. Bu kitab mininci ildə yazılmağa başlanmış, 1020-ci ildə yazılıb qurtarmışdır.

Evkliidin «Başlanğıc», İbn Sinanın «Qanun», Qalileyin «Dialoq», Nyütonun «Başlanğıc», N.İ. Lobaçevskinin «Xəyali həndəsə», Faradeyin «Eksperimental tədqiqatlar», Darvinin «Növlərin əmələ gəlməsi», İ.N.Seçenovun «Baş-beyin refleksləri»,

N.Mikluxo-Maklayın «Səyahətlər», Kopernikin, Marko Polonun, Harveyin, Evarist Qaluanın, Siolkovskinin, Nizaminin, Füzulinin, Nəsiminin, Sədinin, Sabirin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun, Şəhriyarın və başqalarının yüzlərlə kitabı – qızıl sözləri, dərin hikmətləri bəşəriyyətə əvəzsiz töhfə, böyük nemət, uca abidədir.

Sözün qüdrətinə, hikmətinə, mənasına dair çox misallar göstərmək olar. Məhəmməd Füzulinin misralarını yada salaq:

*Söz mənadan asılıdır, məna*
*sözdən hər zaman,*
*Bir-birindən asılıdır necə ki, cism ilə can.*

# ELM

* * *

*Platona* görə insanları üç qrupa bölmək olar: sərvəti sevənlər, şərəfi sevənlər və biliyi sevənlər... *Sokrat* və *Platon* fəziləti biliklə əlaqələndirmişlər.

* * *

Xarakter həyatın dörddə üçünə bərabərdir. Zehnində doğruluq yer etsin, özünü fəzilətli olmağa alışdır. Bilik, yaxşı qəlblilik və enerji insanı həyata bağlayan şeylərdir. Könül comərdliyi, səmimiyyət, ciddiyyət və şəfqət mükəmməl fəziləti meydana gətirir.

*Konfusi*

* * *

Müdriklik çox şey bilmək deyil, lazım olanı bilməkdir.

*Esxil*

* * *

Ağıllı və oxumuş adamdan çox şey tələb etmək lazımdır... sadə adamların ixtiyarları çatan güzəşti ona da aid etmək yersiz olardı.

*N.Q. Çernışevski*

* * *

Nəyi bilmirsənsə, yiyələn ona,
Öyrənmək ar deyil insan oğluna.

*N. Xosrov*

* * *

Sənə böyük mənsəb, məqam gərəksə,
Çalış elmə, fəzilətə çatasan.

*Ə. Cami*

* * *

Kitab işıq saçar bir günəş kimi,
Kitabdır arifin könül həmdəmi.

*Ə. Cami*

* * *

Yarat bir əsər ki, adın ucalsın,
Sən ölüb gedərkən, yerində qalsın.

*Ə. Cami*

* * *

Düşünmək öz-özünə mübahisə etmək deməkdir.

*İspan atalar sözü*

* * *

Alimin paltarı olmasa da, elmi eybini örtər.

*Ərəb atalar sözü*

* * *

Biliyin olsa da bir ümman qədər,
Nadansan əməlin olmasa əgər.
Eşşəyə yüklənsə bir neçə kitab,
Nə alim olar o, nə də süxənvər.
Başı boş o yazıq heyvan nə bilsin,
Dalında odundur, ya kitab-dəftər.

*Sədi Şirazi. «Gülüstan»dan*

* * *

Ən yüksək elm – müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır.

*M.A.Avreliy*

* * *

Bilik həyatda faydalı olmaq naminə qazanılmalıdır.

*F.Bekon*

* * *

Əməl – nəzəriyyə ilə təcrübənin canlı vəhdətidir.

*Aristotel*

* * *

İnsan yalnız bilmədiyi şeydən qorxur, bilik isə hər cür qorxuya qalib gəlir.

*V.Q.Belinski*

* * *

Öz əsərlərində yaşayanlar ölmürlər.

*C.Bovno*

* * *

Elm sərkərdə, təcrübə isə onun əsgəridir.

*Leonardo da Vinçi*

* * *

Nə qədər çox bilsən, bir o qədər güclü olarsan.

*İ.Qorki*

* * *

Keçmişi bilmədən müasir dövrün əsil mənasını və gələcəyi anlamaq qeyri mümkündür.

*M.Qorki*

* * *

***Siolkovski*** «Kainatın reaktiv cihazlarla öyrənilməsi» əsərində yazır: «Məndə kosmik səyahətlərə həvəsi məşhur fantast J.Vern yaratmışdır. O, beynimi bu istiqamətdə düşünməyə sövq etmişdir. Məndə həvəs oyatmış, həvəsdən sonra şüur fəaliyyətə başlamışdır.»

* * *

İlham – hamı üçün işıq saçmayan ildırımdır.

*A.Dekursel*

* * *

Sən ancaq öyrənməklə ucalarsan.

*M.Əvhədi*

* * *

Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir.

*M. Əvhədi*

* * *

Çətinliklərə üstün gəlmək həvəsi və imkanı istedadın xarakteridir.

*İ.M.Karamzin*

* * *

Əsil işıqlı, xoşbəxt həyat sürmək üçün gərək çox biləsən, çox fikirləşəsən, beyin və əl ilə işləməyi öyrənəsən.

*N.K.Krupskaya*

* * *

Elm, bilik o qədər böyük həzz mənbəyidir ki, o, insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

*Konfutsi*

* * *

Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır.

*J.J.Russo*

* * *

Təcrübə nəzəriyyənin dilidir.

*N.P.Oqaryov*

* * *

Bilik gündəlik təcrübənin zərrələrindən əmələ gəlir.

*D.İ.Pisarev*

* * *

Şəxsi təcrübə – həyatda ən xeyirli şeydir.

*V.Skott*

* * *

Elmin vəzifəsi adamlara xidmət etməkdir.

*L.N.Tolstoy*

* * *

Bu günü daha yaxşı görmək üçün kimi..... bilməliyik.

*Ömər Xəyyam*

* * *

Biliyə doğru aparan yeganə yol – fəaliyyətdir.

*B.Şou*

* * *

Bütün sənətlərin açarı elm və tərbiyədir.

*«Qabusnamə»dən*

* * *

Təcrübə ən yaxşı müəllimdir.

*Tacik atalar sözü*

* * *

İnsan qanadsızdır, lakin o, öz ağlının gücünə arxalanırsa uça bilər.

*N.Y.Jukovski*

* * *

Ağıl yumruqdan güclüdür.

*F.Rabla*

* * *

Hazırcavablıq ağıllılıq əlamətidir.

*M.Servantes*

* * *

Dağın yaraşığı daşdır,
Adamın yaraşığı başdır.

*Tatar atalar sözü*

* * *

İnsan öyrəndiklərini unutmamalıdır, təkrar süzgəcdən keçirilməklə onları mənimsəməlidir. Çünki elmin düşməni unutqanlıqdır.

***Həsəni Bəsri*** – görkəmli sufi, alimi (...723-cü ildə ölmüşdür) demişdir: «Elmlərin cilovunu əldən buraxmayın, elmlər şahlıq quşuna oxşayarlar, bəzən başa qonarlar, bəzən başdan uçarlar». Bu kəlamda dərin məna, böyük fəsahət, incə hikmət, çoxlu mənfəət vardır.

* * *

«İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrənilən, yayılan elmdən üstün ola».

* * *

«Elmin fəziləti ibadətin fəzilətindən əfzəldir».

* * *

«Alimləri eşidin, çünki onlar dunyanın çırağı, axirətin nurudurlar».

* * *

«Elm öyrənən zaman birisini ölüm haqlayırsa, o, şəhid sayılır».

* * *

«Ulamaya hörmət qoyun, onlar peyğəmbərlərin varisləridir. Allaha və onun rəsuluna (Məhəmmədə) hörmət onlara hörmət deməkdir».

«Elmi beşikdən qəbrədək öyrənin».

* * *

«Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir».

* * *

«Elm Çində də olsa onun dalınca gedin».

* * *

«Mən elmin şəhəri, Əli isə onun qapısıdır».

*Həzrəti Məhəmməd Peyğəmbər*

* * *

Xalq müəllimi gənc şəxsiyyətin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir.

* * *

Müəllim vəzifəsi ona görə şərəflidir ki, o cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı tərbiyəli vətəndaşlar hazırlayır.

***H.Ə.Əliyev***

* * *

Kitab bizim ustadımız, kitab da müəllimimizdir.

***V.Mayakovski***

* * *

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ,
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.

***Nizami***

* * *

Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır.

***J.J.Russo***

* * *

Təhsil xəzinədir, elm onun açarı.

*S.Əzim*

* * *

Həyatın ən yüksək qayəsi – xeyirxahlıq və bilik əldə etməkdir.

*Solon*

* * *

Əməl zülmət içində bir işıqdır, qəlbə qüvvətdir.

*M.Hadi*

* * *

Var dövlət tükənər, elm tükənməz.

*Özbək atalar sözü*

* * *

Əməl nəzəriyyə ilə təcrübənin canlı vəhdətidir.

*Aristotel*

* * *

Kitab sahilsiz dəniz, biliklər ümmandır.

*Aybek*

* * *

Çox oxuyan yox, faydalı kitabları oxuyan əsil alim ola bilər.

*K.Aristipp*

* * *

Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.

***F.Bekon***

* * *

Hər sözü bir ulduz, bir şəffaf almaz.
Mənalar dünyası qaranlıq deyil.
Bu böyük kitablar yaranır az-az,
Çünki ömürlükdür, bir anlıq deyil.

***S.Vurqun***

* * *

Elm – həqiqətin inkişaf etdiyi canlı orqanizmdir.

***A.İ.Gertsen***

* * *

Saç-saqqal ağartmaqla hörmət sahibi olmaq olmaz. Elm və kamal sahibləri hörmətə layiqdirlər.

***Hind atalar sözü***

# VƏTƏNPƏRVƏRLİK

* * *

Vətəndən əziz heç bir şey yoxdur.

*Lukian*

* * *

Tarixçilər əsgər cəsarətinin nümunəsi olaraq romalı bir əsgərin igidliyini və vəzifəyə sadiqliyini misal göstərirlər. Doqquz əsr bundan əvvəl Vezuvi vulkanı püskürüb Pompey şəhərini yerlə-yeksan edərkən postda dayanan bir əsgər yerindən tərpənməmişdir. Bütün adamlar qaçdığı halda o, vəzifə başında dayanıb durmuşdur. Vulkanın atdığı daş parçaları onun başına tökülür, qaz onu boğurdu. Əsgər elə belə halda-əlində silah durduğu yerdə həlak olmuşdur. Həmin əsgərin xatirəsi bütün qəlbində bir cəsurluq rəmzi

kimi əbədi yaşamaqdadır. Neapol şəhərindəki bir muzeydə indi həmin əsgərin başındakı miqfər, əlindəki mizraq, köksündəki zireh müqəddəs və qiymətli bir eksponat kimi saxlanılır.

* * *

...Azad olmaq! Məna var bu kəlamda, bu adda,
Cavabdeh olmalısan hər işə bu həyatda

*Leonid Martınov*

* * *

Sönükdür hər zaman yalan xəyallar,
Yalnız həqiqətdə ölməz qüvvə var.

*Nizami*

* * *

Həqiqət vicdanın qələbəsi deməkdir.

*M. Prişvin*

* * *

Doğruculuq bütün hisslərə rövnəq verir.

*J.J. Russo*

* * *

Yağ suyun üzünə çıxdığı kimi, həqiqət də həmişə yalandan yüksəkdə durur.

*S. M. Servantes*

* * *

Həqiqət havadır, onsuz nəfəs almaq olmaz.

*İ. S. Turgenev*

* * *

Ömrünü-gününü elə verənlər,
Ellərin qəlbində yaşayan olar.

*B.Rəhimzadə*

* * *

Vətəndən əziz heç bir şey yoxdur.

*Lukian*

* * *

Xalqa ən çox fayda verən adam, adamların ən yaxşısı hesab olunur.

*Ə.Nəvai*

* * *

Vətəni sevmək imandandır.

*Məhəmməd Peyğəmbər*

* * *

«Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir».

«Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır».

Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir və hər birimizin borcu onu qorumaq, yaşatmaq, inkişaf etdirmək və dünyanın qabaqcıl dövlətləri səviyyəsinə çatdırmaqdan ibarətdir.

* * *

Azərbaycan mənim ürəyimdir.

*H.Ə.Əliyev*

* * *

İnsanın ləyaqəti onun vətənpərvərliyinin gücü ilə ölçülür.

*N.Q.Çernışevski*

* * *

Vətən uğrunda ölüm – həyatın davamıdır.

*C.Cambul*

* * *

Vətənin sevməyən insan olmaz,
Olsa da o şəxsdə vicdan olmaz.

*A.Səhhət*

* * *

Öz vətənini, öz azadlıq və istiqlaliyyətini sevən bir xalqın ruhunu məhv edə biləcək qüvvə yoxdur.

*M.İ.Kalinin*

* * *

Çalış ki, kirpiyin olsun almaztək,
Ayıq ol, ölkənin keşiyini çək.

* * *

Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zərxara.

* * *

Xidmət etmək sayılır kişilikdən nişana,
Xalqına xidmət etmək bir şərəfdir insana.

* * *

Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa,

*Nizami*

* * *

Ölməz o adamdır ki, özündən sonra vətən üçün böyük və faydalı yadigarları qalır.

*A. Vovenarq*

* * *

Baş vurmuş olsan da min qürbət elə,
Öz doğma yurduna dönüncə yenə,
Onun tüstüsü də xoş gəlir sənə!

*A.S. Qriboyedov*

* * *

Vətənin qədrini o kimsə bilir ki, Vətən ilə onun ruhən rabitəsi olsun, Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

*N.Nərimanov*

* * *

Vətən uğrunda ölmək şərəfdir.

*F.K.Horatsi*

# MƏNƏVİYYAT

* * *

*A.S. Makarenko:*

«İnsanda yaxşı cəhətləri görmək həmişə çətin olur. Adamların canlı, adi hərəkətlərində... həmin yaxşı cəhətləri görmək demək olar ki, əsla mümkün deyildir. Gündəlik xırda mübarizə onları çox örtülü saxlayır, onlar cari çəkişmələrdə itib batır. İnsanda yaxşı cəhətləri həmişə layihələşdirmək lazım gəlir və pedaqoq bunu etməyə borcludur. O, bəzi səhvə yol verə biləcəyini hiss etsə belə, insana optimistik hipotezlə yanaşmalıdır».

* * *

Atom bombasının yaradıcısı ***Robert Oppengeymer*** əlləri ilə gözlərini qapayaraq: «Fələk! Gör, mən nələr etdim. Nə üçün bu ölüm odunu yandırmaq mənim taleyimə qismət oldu»-deyib ağır həyəcan keçirmişdir.

* * *

***Demokritə*** görə «Ən böyük qələbə öz üzərimizdəki qələbədir. Ən ağır məğlubiyyət özünü itirməkdir, müvazinəti, soyuqqanlığı əldən verməkdir, özünü ələ ala bilməməkdir».

* * *

«Müdrik şəxsin ruhi vəziyyəti haqqında» əsərində Demokrit müdrikliyi, ağlı bütün hərəkətlərimizin hakimi və müəllimi elan etmişdir.

* * *

***N.Q. Çernışevski***: «Xeyirxah o adamdır ki, başqaları üçün yaxşılıq edir, bədxah o adamdır ki, başqaları üçün pislik edir. Bu özözünə çox aydın olan bir həqiqətdir. Bu sadə həqiqətləri birləşdirdikdə belə bir nəticə əldə edirik: insan o vaxt xeyirxah olur ki, özünə xeyir olmaq üçün başqalarına xeyirli iş görür; əksinə o vaxt bədxah olur ki, özünə xeyir olmaq üçün başqalarına pislik edir».

* * *

Şərqin əxlaq klassiki ***Fəridəddin Əttar*** demişdir: «Yavrum, nəfsinin arzularına uyma, nəfsin istəkləri ardınca getmək axmaqlıq, ona bağlı olmaq isə sapqınlıqdır. Pis nəfsin işi daima şər və fəlakətdir. Öz nəfsinə edəcəyin dava ən böyük davadır».

* * *

***Qədim bir əxlaq kitabında deyilir***: «İnsanda qüvveyi-aqilə... bir ayna kimidir. Bu ayna təbii halında qaldıqca, ruh onunla hər şeyi olduğu kimi görür və bu surətlə insan əxlaqın ən uca zirvələrinə ucala bilir. Fəqət, qüvveyi-qəzəbiyyə ilə qüvveyi-şəhəviyyə tüğyan edərək qara bir duman kimi yüksəlib bu aynanı qapadarsa və ağlı öz əmrinə tabe edərsə, insan heyvanlıq dərəcəsinə düşər. Onun nəzərində haqq və vəzifənin heç bir qiyməti qalmaz, şəxsi mənfəətdən başqa heç bir şey düşünməz. Belə insanların qəlbi şeytan yuvasına çevrilir, onların mənəviyyatında əxlaqsızlıq, pislik, qəbahət və rəzalət kök salır». Tamahkarlıq, həm də xəsislik, qəddarlıq, hiyləgərlik, həyasızlıq, dələduzluq, sədaqətsizlik, paxıllıq, vəfasızlıq, xəyanət kimi qəbahətlərə

qida verir və bəzən də bunu törədir.

Tamahı, acgözlüyü əxlaqın vəbası adlandıranlar səhv etmirlər.

* * *

***Platon*** «Ziyafət» dialoqunda məhəbbəti müdrikliklə fəzilətin qovuşması adlandırmışdır.

* * *

İdeya söz meşəsində nadir ovçudur

***V. Hüqo***

* * *

Ədalətsizliyə qarşı etiraz etmək mənəviyyatca zəngin adamların əxlaq formasına çevrilir... Böyük rus yazıçısı ***A.P.Çexov***, A.M. Qorkinin Akademiyaya seçilməməsinə etiraz əlaməti olaraq, özünün akademiklik diplomunu rədd etmişdir.

Görkəmli fransız yazıçısı və filosofu ***Sartr*** Beynəlxalq Nobel Mükafatı Komissiyasının qərəzkarlığına, ayrı-seçkilik salmasına etiraz əlaməti olaraq, Nobel mükafatını almaqdan imtina etmişdir.

Qüvvətli iradənin və xarakterin insan taleyində oynadığı rol hamıya bəllidir. Belə iradə və xarakter sahibləri bəzən mümkün olmayanı da mümkün edirlər. Tarixdə bir

çox qəhrəmanlıqlar, böyük elmi kəşflər və ixtiralar məhz iradə qüvvəsinin nəticəsi hesab edilə bilər. Bu məsələ ilə əlaqədar C. Brunonun, Qalileyin, Nyutonun, Darvinin, F.Jolio Kürinin, Eynşteynin tarixi kəşflərini xatırlamaq yerinə düşərdi.

Görkəmli əxlaq nəzəriyyəçilərinin çoxu insanı üç qüvvədən – fiziki, intellektual və iradə qüvvəsindən ibarət mürəkkəb bir varlıq hesab edib. İradə qüvvəsinin rolunu daha yüksək qiymətləndirmişlər.

* * *

Kor odur ki, düşdüyü quyuya bir də düşə.

***Türk atalar sözü***

* * *

Uzun müddət peşiman olmaq istəmirsənsə, nəfsə tabe olma.

***Nuşirəvan Adil***

* * *

Çox möhnətin sonu bir gün səadətdir bu dünyada,

Qış gedəndə bahar gələr, - bir adətdir bu dünyada.

***Ə.Xaqani***

* * *

Böyük vədlər inamı azaldır.

*F.Horatsi*

* * *

Təmkin igidliyin ən yaxşı cəhətidir.

*V.Şekspir*

* * *

Ümidini itirməyəni məğlub hesab etmək olmaz.

*Hind atalar sözü*

* * *

İradə tərbiyəsindən danışarkən filosof, psixoloq və sosioloqlar ananın bu işdəki rolunu xüsusi qeyd edirlər. Məhz ana iradə tərbiyəsinin ilk təməl daşını qoyur.

İradə qüvvəsi insanda yeni qüvvələr yaradır və əlavə enerji mənbəyinə çevrilir.

* * *

Rus təmsilçisi *Krılov* «Yazıçı və quldur» təmsilində o, bir pis kitab müəllifi ilə yolkəsən, adam soyan bir quldurun hərəkətlərini müqayisə etmiş və belə qərara gəlmişdir ki, pis kitab yazan quldurdan, yol kəsəndən, soyğunçudan artıq cinayətkardır. Təmsildə həm yazıçı, həm də quldur mühakimə olu-

nub, ölümə-yandırılmağa məhkum edilir. Quldurun salındığı qazanın altına çoxlu odun yığılır ki, dərhal ölsün. Yazıçının salındığı qazanın altı isə tədricən qızdırılır ki, yazıçı işgəncə çəkə-çəkə ölsün.

* * *

İstəyirsən xalq səni ağıllı hesab etsin, ağıllı olmayan adama sirr vermə.

*Nuşirəvan Adil*

* * *

Həyatdan dərs ala bilməyən adama heç kəs dərs verməməlidir, çünki əməyi hədər gedər.

*Nuşirəvan Adil*

* * *

Dostunun az olmasını istəmirsənsə, kin saxlayan olma.

*Nuşirəvan Adil*

* * *

Həyat məzmununa görə qiymətləndirilir.

*A.A. Seneka*

* * *

Görkəmli bəstəkar *V.P. Solovyov-Sedoy* demişdir:

«Mənə elə gəlir ki, əgər daim mənim qu-

lağımda Bethovenin Beşinci Simfoniyası səslənsəydi, mən ömrümdə bir dəfə də olsun qəbahətli, ləyaqətsiz hərəkət etməzdim».

* * *

Daş qəlbli insanları neylərdin, ilahi?

*M.Ə.Sabir*

* * *

***N.A. Dobrolyubov:***

«Bataqlıqda da dənizdə olduğu kimi məhv olmaq asandır. Lakin dənizdə ölmək bataqlıqda məhv olmaqdan yaxşıdır...»

* * *

***Yunan şairi Menandr:***

«Köksümüzün içində bir tanrı var, bu bizim vicdanımızdır».

* * *

Bir an kifayətdir ki, qəhrəman olasan, lakin layiqli övlad olmaq üçün bütöv bir ömür lazımdır.

***V.F. Bryunna***

* * *

***Hippokrat*** (eramızdan əvvəl 460-377) qəzəbi ağır xəstəliklərdən biri adlandırmışdır.

* * *

Böyük alman filosofu *Kant* (1724-1804) 80 yaşında ölərkən xidmətçilərin ağladıqlarını görüb onlara demişdir: «Ağlamayın, mən çox rahat ölürəm və ölümümdən əsla qorxmuram. Çünki bütün insanlıq vəzifələrimi layiqincə yerinə yetirmişəm. Həyatımda həmcinslərimdən hər hansı birinin səfalətinə səbəb olsaydım, onda ölümdən qorxardım. Çox şükür ki, həmişə mübarizə aparmışam, amma heç kəsə pislik etməmişəm».

* * *

Gözəllik həyatdır, gözəllik o şeydir ki, onda biz öz anlayışlarımıza uyğun olmalı həyatı görürürk.

*N.Q.Çernışevski*

* * *

Özünü yaxşı hərəkətlərdən nümunə götürməyə öyrətməklə bərabər, özün də yaxşı nümunə yaratmağı öyrən.

***F.Bekon***

* * *

***L.N. Tolstoy*** yazmışdır: «Müdriklik sonsuzdur – onda nə qədər uzağa getsən bir o qədər sənə lazım olur».

* * *

Macar inqilabçı-demokratı ***Vaşvari Pal*** demişdir: «...təbiət insanı həyatın qaranlıq, daşlı-kəsəkli cığırına buraxdığı vaxtdan bəri onun əlinə bir ağıl məşəli – müdriklik də vermişdir ki, onun işığı altında insan bu həyat cığırı ilə irəliləyə bilsin».

* * *

***N. Ostrovski*** yazmışdır: «Tənqid normal qan dövranıdır. Bunsuz hökmən durğunluq və xəstəlik halları yarana bilər...».

* * *

Filosof ***Cek London*** demişdir:

«Unutmaq olmaz ki, pis tərbiyə olunmuş adamda igidlik kobudluğa, alimlik pedantlığa, hazırcavablıq təlxəkliyə, sadəlik qabalığa, həlimlik yaltaqlığa çevrilir».

* * *

Məşhur rus pedaqoqu ***K.D.Uşinski*** yazmışdır: «İnsanın bütün arzularını yerinə yetirin, lakin onun həyatındakı məqsədini əlindən alın, onda baxın görün, o necə bədbəxt və miskin bir varlığa çevriləcək. Deməli, insan ləyaqətinin və insan xoşbəxtliyinin əsası arzuların ödənilməsi deyil... həyatdakı məqsəddir».

* * *

İstəyirsənsə başqaları sənə amansız olmasınlar, sən özünə amansız ol!

*L. Leonov*

* * *

Qara bəxt göydən gəlmir, nadanlığın məhsuludur, müdrikliyi lazımınca qiymətləndirməməyin məhsuludur.

*L. Alberti*

* * *

Çağırılmış yerə ar eləmə,
Çağırılmamış yeri dar eləmə.

*Atalar sözü*

* * *

İngilis yazıçısı *V.M. Tekkerey* demişdir: «Hərəkət sənin, vərdiş biçərsiniz, vərdiş səpin, xarakter biçərsiniz, xarakter sənin, onda siz taleyinizi biçərsiniz».

* * *

*M.M. Prişvin* yazmışdır:

«Əxlaq ağılın qüvvəsinin hisslərin qüvvəsinə münasibətidir. Hiss nə qədər qüvvətlidirsə və ağıl ona nə qədər yaxındırsa, insan öz insani işlərində bir o qədər də artıq insandır. Bizim insanlıq vəzifəmiz öz şəxsi davra-

nışlarımızın güzgüsünü yaratmaqdan ibarətdir. Həşərat baxımsız yaşayır, bundan fərqli olaraq insanın insanlığı bundadır ki, torpaqdan qalxaraq özü ilə bərabər yuxarıya güzgü də qaldırmışdır, buna baxıb özünü görür və deyir «bu mənəm»».

* * *

***Sədi Şirazi*** xeyirxahlığı insanın dünyada qoyub gedəcəyi ən qiymətli miras və insanda ən əsas insanlıq əlaməti hesab etmişdir:

*«Çox gömüldü yer altına mənəm-mənəm deyənlər,*
*Ki, onlardan bu dünyada bircə ad-san qalmadı.*
*Torpaq altda yatanlara bir diqqətlə nəzər sal,*
*Torpaq yedi, sümüyündən belə nişan qalmadı.*
*Ey filankəs, xeyirxah ol, bil həyatı qənimət,*
*Nə qədər ki, deməmişlər, filan-filan qalmadı!»*

* * *

Quş öz qanadı ilə uçduğu kimi, adam da öz hikməti ilə uçur.

***Ərəb atalar sözü***

* * *

Ağıl ilə həya ekiz qardaşdır, birini itirsən o birini tapa bilməzsən.

***Azərbaycan atalar sözü***

* * *

Baş ürəyi tərbiyə etməlidir.

*F.Şiller*

* * *

Ağıl – qızıl tacdır, hər başda olmaz.

*Kürd atalar sözü*

* * *

Aldanmaq istəmirsənsə, görülməmiş işi görülmüş hesab etmə.

*Nuşirəvan Adil*

* * *

Gülərüzlülük, təbəssüm, nikbinlik dərin bir inamdan və möhtəşəm bir daxili-mənəvi qüvvədən doğan haldır. Ruh yüksəkliyi, xoş əhval-ruhiyyə şəri, rəzalət və qəbahətləri qovmaqda bizə yeni qüvvə verir. Məhz bu mənada gülüş, təbəssüm heç də bəzilərinin düşündükləri kimi kiçik şeylər deyildir.

Gülüş, təbəssüm bizim daxili ruhumuzun xarici ifadəsidir... İnsanın ürəkaçıqlığını, emosiyaların saflığını heç nə gülüş kimi təzahür etdirmir. Əlbəttə, biz saxta və hiyləgər gülüşləri nəzərdə tutmuruq.

Ürəkdən gələn gülüş – böyük müalicə vasitəsidir.

* * *

*Şərq filosoflarından* biri yazmışdır:

«Yer üzündə insanlıq təbəssümün ilk görünüşü ilə bərabər başlanmışdır. İnsanlardan əvvəl bu qara torpaq üzərində təbəssümdən əsər belə görünməzdi. Təbəssüm ancaq insana məxsusdur...

Təbəssüm ruhun sağlamlığı qədər səadətin də müjdəçisidir... Beşikdəki uşağın ilk təbəssümə başladığı gün ailə səadətinin tamamlandığı gündür. Uşağın ilk tərbiyəçisi anasının təbəssümüdür. Sonralar bir çox göz yaşları axıdan eşqin ilk başlanğıcı da dadlı bir təbəssümdür. Dostlar arasındakı səmimiliyi göstərən də təbəssümdür».

* * *

Gözəllik və Fəzilət iki doğma bacıdır.

*V.Q. Belinski*

* * *

Ən yaxşı əxlaq məktəbi ailədir.

*S. Smayls*

* * *

İdrak üçün fəlsəfə, fəaliyyət üçün fəzilət – həmişə, bütün mərhələlərdə və bütün şəraitlərdə mənim ən vacib hesab etdiyim bunlardır.

*Mişel Monten*

* * *

Əsil gözəllik surətdə deyil, ağıl və kamaldadır.

*F. Köçərli*

* * *

İçkini tərk etmək istəyirsənsə, sərxoşa bax.

*Çin atalar sözü*

* * *

Tələsib evlənənin əzabı uzun sürər.

*A.İ.Gertsen*

* * *

Həyəcan, qəm və kin ürəyi, nəm isə dəmiri qurudur.

*Seyid Əzim*

* * *

Mübarizə həyat üçün şərtdir, mübarizə bitdikdə həyat yox olur.

*V.Q.Belinski*

* * *

O, kəs sahib olar ağla, kamala,
Hikmətdən, öyüddən yaxşı dərs ala

*Ə. X. Dəhləvi*

* * *

Bu günü daha yaxşı görmək üçün keçmişi bilməliyik.

*Ömər Xəyyam*

* * *

Bütün nemətlərin başlanğıcı və son həddi ağıldır.

*Epikur*

* * *

Ağıllı olmaq istəyirsənsə, ağıllı sual verməyi, diqqətlə dinləməyi, sakit cavab verməyi və sözün qurtaranda susmağı öyrən.

*Y. K. Lafater*

* * *

Cahilə cavab verməmək elə cavabdır.

*Ərəb atalar sözü*

* * *

Birinci badə yanğı, ikinci şadlıq, üçüncü zövq, dördüncü dəlilik gətirir.

*Anaxarsis*

* * *

İçkinin başlanğıcı günah, ortası sərxoşluq, sonu fəlakətdir.

*Xaqani*

* * *

Araq ağ rəngdədir, lakin o adamın şan-şöhrətini qaraldır.

*A.P. Çexov*

* * *

Stəkanda boğulan dənizdə boğulandan çoxdur

*Yapon atalar sözü*

* * *

Şərab başa çıxanda, ağıl qədəhə düşər.

*Alman atalar sözü*

* * *

Araq dəryasında bahadırlar da batırlar.

*Rus atalar sözü*

* * *

Sərxoşluq- insanın əsəb sisteminin taunudur.

*H. B. Zərdabi*

* * *

Bütün insanlar içir və yeyirlər, ancaq dəlilər sərxoşluq və qarınqululuq edirlər.

*V.Q. Belinski*

* * *

Çaxır içən ilə su içən heç zaman eyni səviyyədə fikirləşə bilməz.

*Demosfen*

* * *

İnsan hisslərinin ən güclüsü mənlikdir.

*V. Q. Belinski*

* * *

Birisi ilə mübahisə edəndə çalış ki, sözlərin yumşaq olsun, dəlillərin möhkəm, Rəqibini susdurmağa yox, inandırmağa cəhd et.

*C. Uilks*

* * *

Təvazökarlıq insanın mənəvi cəhətcə təkmilləşməsinə kömək edir.

*A. Bakıxanov*

* * *

Yaxşıdan ibrət götürməz zatı bəd nacins olsa,
Necə ki, künbəz başında qoz dayanmaz heç zaman

*Sədi Şirazi «Gülüstan»*

* * *

Fikirlər müxtəlif ola bilər, lakin həqiqət birdir.

*S.T.Konenkov*

* * *

İyirmi qəbahəti bağışlamaq olar, bir yalanı isə yox, çünki yalanın peyki hiyləgərlikdir.

*C. Lokk*

* * *

Yer üzündə ən böyük varlıq insandır, insanda isə ən qiymətli şey müdriklikdir.

*A.Hamilton*

* * *

İdeya söz meşəsində nadir ovçudur.

*V. Hüqo*

* * *

İgid bir dəfə ölürsə, qorxaq hər gün ölür.

*V.Şekspir*

* * *

Dünyada elə bir məxluq var ki, biz həmişə ona borcluyuq, o, anadır.

*N.A.Ostrovski*

* * *

Tərbiyədə əsas məsələ – tərbiyəçinin kim olmasından ibarətdir.

*D.İ.Pisaryev*

* * *

Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaratmış, mən aləm yaratmışam.

*M.Şəhriyar*

* * *

Çayın mənbəyi – bulaq, ailənin mənbəyi – anadır.

*Monqol atalar sözü*

* * *

Vicdan – bizim malik olduğumuz ən yaxşı əxlaq kitabıdır, yoldan azmamaq üçün ona tez-tez baxmaq lazımdır.

*B.Paskal*

* * *

İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi, vətənpərvərliyi, şərəfi və fədakarlığı məhkum etmək olmaz.

*Xosrov Ruzbeh*

* * *

Fikirlər yaxşı olanda rəftar da yaxşı olur.

*L.N.Tolstoy*

* * *

Pulu hər şeyə qadir hesab edən adamlar, özləri pul üçün hər şeyə qadirdirlər.

*A.Dante*

* * *

Nəfs üç künclü bir tikandır, nə vəziyyətdə qoyursan qoy, yenə sənə batacaqdır.

*C.Rumi*

* * *

Tamah bu qapıdan girəndə, səadət o biri qapıdan çıxar.

*Atalar sözü*

* * *

Vicdan – insanların həyatının doğru yol göstəricisidir.

*L.N.Tolstoy*

* * *

***Heminquey*** özünün «Ölüm zəngi kimə çalınır» romanında ingilis şairi ***Con Donnun*** bu fikrini kitabına epiqraf seçmişdir:

«Heç bir insan başqalarından təcrid deyildir. Hər bir adam sanki qitənin, materikin bir hissəsidir. Əgər dəniz sahil daşlarından bir parçasını sürtüb uçurursa, bundan bütün Avropa kiçilir. Hər bir insanın ölümü mənim üçün böyük itkidir, çünki mən bütün bəşəriyyətlə əlaqəliyəm. Ona görə də heç vaxt soruşma ki, ölüm zəngi kimə çalınır, bu zəng sənə çalınır»

* * *

Kamillik yalnız biliyin dərinliyində, hisslərin zənginliyində deyil, eyni zamanda iradənin qüvvəsindədir.

*Aristotel*

* * *

İnsan bütün başqa varlıqlardan gülmək istedadı ilə fərqlənir.

*C.Addisson*

* * *

Ən böyük qələbə öz üzərində çaldığın qələbədir.

*Demokrit*

* * *

Pis xəbərlər yüyürür, yaxşı xəbərlər ağır tərpənir.

*C.Milton*

* * *

Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o itən deyil.

*Nizami*

* * *

İş çətinləşəndə səbr açar bağı,
Gecə ardında var sübhün çırağı.

*Nizami*

* * *

Səbri olmayan və hirsini boğa bilməyən adamdan siyasətçi olmaz.

*A.Stendal*

* * *

Hörmət və izzət pulla alınmır, onu göstərdiyin xeyirxahlıqla əldə edə bilərsən.

*Ə.Firdovsi*

* * *

Ürəyi geniş olana bütün dünya qohum-qardaşdır.

*Hind atalar sözü*

* * *

Eşitdim qocalarkən dönüb gövhər olur daş,
Düşün bir az, hər daşdan gövhər yaranmır, qardaş.

*Nizami*

* * *

Dəvə uzaq düşsə ayrılsa qatar,
Bir siçan da olar ona cilovdar.

*Nizami*

* * *

Şəfəq saçan o Günəşin özü də,
Çirkin olur, yarasanın gözündə.

*Nizami*

* * *

Hanı bu dünyanın vəfadarlığı,
Bir yanda ağlaşma, bir yanda çalğı!

*Nizami*

* * *

Qorxaqlığın ən böyük zərəri ondadır ki, iradəni bir çox faydalı hərəkətlərdən saxlayır.

*R.Dekart*

* * *

Böyük istedadlar xırdaçılıqdan uzaqdırlar.

*O.Balzak*

* * *

Əsil istedadda hər şey sadədir, açıqdır, safdır və hər cür şübhədən uzaqdır.

*O.Balzak*

* * *

***D.D.Şostakoviç*** demişdir: «...musiqi insanı yüksəldir, onu nəcibləşdirir, onun ləyaqətini, öz daxili qüvvəsinə, özünün böyük həvəsinə inamını möhkəmləndirir»

* * *

Əxlaqı xalq ilə düz gəlməyinin dərisi bədəni üçün elə bir dar məngənəyə çevrilər ki, zindan onun yanında geniş bir istirahətgaha oxşar.

***Makedoniyalı İsgəndər***

* * *

Müdrik, bilikli olmaq üçün gözü və qulağı açmaq kifayət deyil, dərin ağıl lazımdır.

*E.Heraklit*

* * *

Ağıl olan yerdə şərəf də olar.

*Əfqan atalar sözü*

* * *

Ağıl təbiətin vergisi deyil, təcrübənin nəticəsidir.

*Əfqan atalar sözü*

* * *

Dinləyə bilmək bacarığı, yaxşı danışmaq bacarığına bərabərdir.

*Ə.M.Bəhmənyar*

* * *

Böyük adamlar heç bir işi yarımçıq görmürlər.

*K.M.Villand*

* * *

Həyatın mənası gözəllikdə və məqsədə çatmaq cəhdindədir.

*M.Qorki*

* * *

İnsan öz qüvvəsinə inandığa vaxt istəyinə nail olur.

*A.Feyerbax*

* * *

Qəhrəman o adamdır ki, həyat yaradır, ölümə qalib gəlir.

*M.Qorki*

* * *

İgidlik taleyin zərbələrini heçə endirir.

*Demokrit*

* * *

İnsanın hər cür şəraitdə öz vəzifəsini yerinə yetirməsi də qəhrəmanlıqdır.

*M.İ.Kalinin*

* * *

Qəhrəmanlıq – həyatı daha dərindən duymağın təbii nəticəsidir.

*L.N.Tolstoy*

* * *

Ən yaxşı tərbiyə – yaxşı nümunədir.

*L.N.Tolstoy*

* * *

Təmiz vicdan böhtandan qorxmur.

*F.Volter*

* * *

Vicdanlı olmaq – ədalətli, namuslu, doğruçu, səmimi olmaq deməkdir.

*L.Feyerbax*

* * *

Mən ən güclü, ən qüvvətli, ən zəkalı o adamı hesab edirəm ki, o öz istəklərini idarə etməyi bacarır.

*Aristotel*

* * *

İnsan hisslərinin ən güclüsü – mənlikdir.

*V.Q.Belinski*

* * *

Təvazökarlıq istedadla düz mütənasibdir.

*K.V.Plexanov*

* * *

Həm gözəl insan olmaq, həm də işə yaramaq – böyük adam olmaq deməkdir.

*V.Hüqo*

* * *

Həyat ötən günlər yox, yadda qalan günlərdir.

*P.A.Pavlenko*

* * *

Yaşamaq – başqası üçün yaşamaq deməkdir

*E.M.Remark*

* * *

Həyatda büdrəməyən adam yoxdur, lakin qəhrəmanlıq odur ki, büdrəyəndə yıxılmayasan.

*M.Qandi*

* * *

Dünyada yeganə, bircə həqiqi xəzinə vardırsa, o da yaxşı ürəkdir.

*K.Paustovski*

* * *

İnsanlar bir-birinə yardım etməsələr məhv olarlar... Bir-birimizə qarşılıqlı yardım etməsək yaşaya bilmərik. Məhz buna görə də yardıma ehtiyacı olan hər kəsin öz həmcinslərindən bu yardımı istəməyə təbii haqqı vardır. Yardım edə biləcək vəziyyətdə olan heç bir adam bu tələbi rədd edə bilməz.

*Valter Skott*

* * *

Cəsarətli adamların xarakteri yumşaq olur... İgid adamlar alicənablığa daha çox qadir olurlar... Qətiyyətli adam öz cəsarətinə qranit qayaya söykənən kimi söykənir.

*A.V.Şelqunov*

* * *

Dünyada böyük işlərin hamısı cəsarət sayəsində görülmüşdür...

*Smayls*

* * *

Mümkün olmayanı yalnız insan mümkün edə bilər. Xarakter mükəmməl tərbiyələnmiş iradədir.

*R.Emerson*

* * *

Dünyada hansı daşdan hörülürsə hörülsün, elə bir möhkəm divar tapılmaz ki, insan iradəsi və fikrinin qarşısını alsın.

*Jorji Amadu*

* * *

İradəlilik çox ecazkar şeydir. Onun vasitəsi ilə dağları yerindən oynatmaq mümkündür.

*Cek London*

* * *

***Sokratın*** dediyi «Danış, səni görüm» kəlamının böyük hikməti vardır.

* * *

Filosof *Ərəstundan (Aristotel)* soruşdular:

«Ağıl qüvvəti haradan alır?» Dedi: «Hamı qüvvəti yeməkdən alır, ağılın yeməyi isə hikmətdir».

* * *

*Məhəmməd Peyğəmbər*: «Bir dəfə dəniz səfərinə çıxın və böyük Allahın necə xariqələr yaratdığına tamaşa edin».

* * *

Biz ancaq öz insani vəzifələrimizi layiqincə yerinə yetirməklə həyat haqqında dürüst hökm verə bilərik. İnsan bir ülvi varlıqdır... Dünyada ən əvvəl sevməliyik, sevgi gözlərimizi açacaq və qəlbimizi hərəkətə gətirəcəkdir; sonra isə görəcək və anlayacağıq.

*Y.Teylor*

* * *

Tamahın dalınca gedərsə hər kəs,
Xalqın hörmətini qazana bilməz.

*Ə.Xəqani*

* * *

*«Qabusnamə»də* deyildiyi kimi, «Bu dünya bir ovlaqdır, sən isə ovçu, sənin ovun da – yaxşı əməllərin. Çalış indi yaxşılıq elə ki, sonra xeyrini görəsən.»

* * *

Namus həyatdan qiymətlidir.

***İ.F.Şiller***

* * *

Hirs qabaqda gələndə, ağıl arxada olar.

***Türkmən atalar sözü***

* * *

Sərkərdə ***Suvorov*** deyərdi:

- Yaddaş ağlın xəzinəsidir, bu xəzinədə isə çoxlu arakəsmələr var, odur ki, gərək hər şeyi öz yerinə qoyasan.

Əlbəttə, yaxşı yaddaş odur ki, lazım olanı yadda saxlayıb, gərəksizləri unuda bilsin. Buna görə də yaxşı yadda saxlamağın əsas şərti – fikirləşməkdir.

* * *

***Ə.Caminin*** rövzələrinin birində söylənilən hekayətdə deyilir: «Bir sərxoş evindən çıxıb küçənin ortasına yıxıldı, qusub ağız-burnunu buladı. Bir it gəlib onu yalamağa başladı. Elə

təsəvvür etdi ki, adamlar onun üz-gözünü təmizləyir». Təşəkkür edib dedi: «Allah sənin balalarını sənə çox görməsin». İt bir ayağını qaldırıb onun üzünə «fəvvarə» vurdu. Sərxoş dedi: «Afərin sənə, ağa, üzümü yumaq üçün isti su da gətirdin».

* * *

*Cahiz* (məşhur ərəb alimi və yazıçısı) deyir: «Məni heç belə utandıran olmamışdı. Bir gün bir arvad məni tutub heykəltəraş dükanına apardı. Təəccüb etdim. Səbəbini heykəltəraşdan soruşdum. Dedi: bu arvad mənə bir şeytan surəti yaratmağı sifariş etdi. Mən dedim, şeytan görməmişəm, necə düzəldim? Tutub səni gətirdi, dedi: «Bax, belə!»

Qəribə yanağın, əcəb üzün var,
Bu günə salammaz kimsə özünü.
Şeytan surətini çəkmək istəyən,
Gəlib görməlidir sənin üzünü.

* * *

Dahi alman şairi *Höte* böyük ingilis şairi və dramaturqu Şekspirin özündən əvvəlki təcrübəni necə öyrəndiyindən bəhs edərək demişdir: «Biz hamımız, özümüz haqqında nə cür düşünməyimizdən asılı olmayaraq, mahiyyət etibarı ilə kollektiv varlığıq. Həqi-

qətdə, sözün əsil mənasında, bizim özümüzə məxsus olduğunu söyləyə biləcəyimiz şeylər çox azdır. Biz bizdən əvvəl yaşayanlardan da, bizimlə yaşayanlardan da öyrənməliyik, hətta dahilər də hər şeyi ancaq özündən icad etməyə cəhd etsəydilər, çox uzağa getməzdilər... Özüm haqqında danışarkən bunu deməliyəm ki, fəaliyyətimdə mənə yalnız görmək və eşitmək, fərqləndirmək və seçmək, gördüklərimi və eşitdiklərimi öz ruhumda canlandırıb başqalarına çatdırmaq qabiliyyəti və meyli məxsusdur. Öz əsərlərimlə mən yalnız müdrikliyə deyil, məndən xaricdə mövcud olan və mənə material verən minlərlə şəxslərə və şeylərə borcluyam... Əsil mətləb möhkəm iradəyə malik olmaq və bu iradəni bacarıqla və təkidlə həyata keçirməkdən ibarətdir».

* * *

Hər kəs istəyir ki, ona heyran olsunlar. Biri istəyir ki, onun igidliyinə, digəri onun qüdrətinə, başqası sərvətinə, daha başqa birisi də istəyir ki, onun xeyirxahlığına görə ona heyran olsunlar. İnsan hərəkətlərinin gizli və son məqsədi budur.

***Jan Jak Russo***

* * *

...Səxavət insaniyyətin yoldaşıdır: insaniyyətin mizanı səxavətdir, bəxşeyişdir. Millət yolunda vardan-yoxdan keçmək hər bir ibadətdən ucaraqdır. Nəcabətə sübut səxavətdir, köməkdir, sivayi bir qeyri yüksək nemət dünyada yoxdur.

*N.B.Vəzirov*

* * *

Alim, şair, döyüşçü, qanunverici... və s. olmaq yaxşıdır, lakin bunlarla yanaşı, insan olmaq da lazımdır.

*V.Q.Belinski*

# SAĞLAMLIQ

* * *

Gözəllik öz şəfqətli əlləri ilə bizim könlümüzü sığallayır.

*F. Şiller*

* * *

Çox yeyənlər deyil, ən vacib qidanı qəbul edənlər sağlam ola bilərlər.

*K. Aristotel*

* * *

Həkim ilə söhbətdən sonra xəstə özünü yüngül hiss etmirsə, deməli, həkim. Həkim deyildir.

*V.M.Bexterev*

* * *

Sağlamlıq heç bir xəzinə ilə müqayisə edilə bilməyəcək dərəcədə insan həyatına şənlik və xoşbəxtlik verir.

*H. U.Lonqfello*

* * *

Sağlamlığın əsasını hərəkət təşkil edir, hərəkət bütün dərmanları əvəz edə bildiyi halda, heç bir dərman hərəkəti əvəz edə bilməz.

*N.L.Pisso*

* * *

Az yeməyin hüdudsuz mənfəəti vardır. O, sağlamlığı qoruyan əsas vasitədir.

*Şəms Təbrizi*

* * *

Suyun çoxluğu əkinə zərər verən kimi, yeməyin də çoxluğu bədənə zərər verir.

*Əbul fərəc*

* * *

Sağlam olmaq varlı olmaqdan yaxşıdır.

*Fransız atalar sözü*

* * *

Səhər ağzına bir şey qoymamış evdən çıxma, çünki toxluq səbir və biganəlik nişanəsi, aclıq əsəbilik və qanıqaralıq əlamətidir.

*Ə. Cami*

* * *

Xəstəlik törədən amilləri sən,
Çalış ki, özündən kənar edəsən,
Uzaq ol dərmandan, acmamış yemə.
Doymamış əlini götür süfrədən.

*Ə. Cami*

* * *

Bir lətifədə deyilir: ***(Ə.Cami)*** Bir şair bir təbibin yanına gedib dedi: «Elə bil bir şey mənim ürəyimdə yumurlanıb, hərdən ürəyim sıxılır, oradan bütün bədənimə titrətmə düşür, tüklərim biz-biz olur». Təbib hal əhli idi, soruşdu: «Bu yaxınlarda elə bir şer yazmamısanmı, onu heç kəsə oxumamış olasan?» Dedi: «Bəli». Həkim dedi: «Onda oxu». Oxudu. Dedi: «Bir də oxu». Oxudu. Sonra dedi: «Dur get, artıq xilas oldun, həmin bu şer idi ki, ürəyində yumurlanmışdı və onun soyuqluğu bədəninə yayılmışdı. İndi ki, ürəyini boşaltdın, artıq nicat tapdın».

* * *

Sultanlıq de nədir? – Sağlam olmağın,
Şahlıq? – Xeyir ilə nəfəs almağın!

***M.Əvhədi***

* * *

Səhhəti yerində olan adam xəzinə sahibidir.

*M.T.Sidqi*

* * *

Canı sağ olan adam xəstəyə həmişə yaxşı məsləhətlər verər.

*P.Terensi*

* * *

Yaxşı yuxu, yumşaq qarın və tərləmə – uzun ömrün şərtləridir.

*Əbdül Fərəc*

* * *

Sağlam dilənçi xəstə varlıdan xoşbəxtdir.

*A.Şopenhauer*

* * *

Borcun yoxsa dövlətlisən, canın sağlamdırsa xoşbəxtsən.

*Monqol atalar sözü*

* * *

İnləmə «xəstəyəm» deyə, ey filan,
Desən ki: «sağlamam», sağlam olarsan.

*Nizami*

# DOSTLUQ

* * *

Sənin qəbahətlərini üzünə deyən düşmən, bunları gizlədən dostdan yaxşıdır.

*Leonardo da Vinçi*

* * *

Xəbərçiyə inanan dostluğu məhv edər.

*Ərəb atalar sözü*

* * *

İt sənə dost olar bir sümük atsan,
Namərd qədir bilməz olsan da qurban.

*Nizami*

* * *

Pis dost kölgə kimidir. Günlü gündə qaçarsan, səndən əl çəkməz, buludlu gündə axtararsan tapa bilməzsən.

*Abay Kunanbayev*

* * *

Əgər dostunun sağ ayağı axsayırsa, sən də sol ayağınla axsa ki, dostluğunuz daim müvazinətdə olsun.

***J.Renar***

* * *

Bir alimdən soruşurlar: «Dost yaxşıdır, yoxsa qardaş?» Cavab verir: «Qardaş da dost olsa yaxşıdır».

* * *

Dost ona deyərlər ki, sirr saxlar,
pərdə tutar,
Düşmənsə ruzigartək hər zaman
pərdə yırtar.

* * *

Sənə düşmən olanı necə tanısın bədən?
Vəfalı dostu hər an könüldən soruş öyrən.

* * *

Heç oturub, durma pis dostla, çəkin,
Şəninə əskiklik gətirər sənin.

* * *

O qəmlər ki, tutar könüldə qərar,
Dərd bilən dostlara söyləmək olar.

* * *

Dostların üzünə məclisi parlat,
Göz və könül gülsün, xoş olsun həyat.

* * *

Qohumdan mehriban yadlar az deyil,
Həm vəfalı, sadiq, həm də şirindil.

*Nizami*

* * *

Dostu olmayanların qəlbi boş səhraya bənzər.

*Xoca Əhməd Abbas*

* * *

Başqalarını pisləməyi xoşlayanlarla dostluq etməyə dəyməz.

*Demokrit*

* * *

Dostluğun birinci şərti – etibardır.

*J.D.Lobruyer*

# ƏMƏK

* * *

*Aristotel* demişdir: «Səadəti məqsədlərimizdə deyil, enerjimizdə axtarmaq lazımdır». Biz öz məqsədlərimizi həyata keçirməklə əsla tərəddüdlərə yol verməməliyik, əngəllər, maneələr, çətinliklər bizi heç vaxt qorxutmamalıdır.

* * *

Yaşamağı bacarmaq hər damcı ilhama 99 damcı tər qatmaqdan ibarətdir.

***İ.İ. Larni***

* * *

Əlbəttə, qəhrəmanlıq şücaət məktəbi keçmək üçün mütləq yalnız dənizə çıxmaq, havaya qalxmaq və döyüş meydanlarında vu-

ruşmaq vacib deyildir. Cəmiyyət həyatının hər hansı bir sahəsində də igidlik göstərmək mümkündür.

* * *

«Sabah» «bu gün» üçün ən böyük düşməndir, «sabah» bizi gücdən salır, bizi acizliyə gətirib çıxarır, iş görməyə qoymur.

*E.R.Labule*

* * *

Tarlada izi olmayanın süfrədə üzü olmaz.

*Türk atalar sözü*

* * *

Əməklə acı taleyə də qalib gələrsən.

*Finlandiya atalar sözü*

* * *

Ömrünü boş yerə vermə əlindən,
Ötən gün qayıtmır, yaxşı anla sən.
Çatacaq kamına istedadlılar,
İşləri iş bilən aparsa əgər.

*Nizami*

* * *

Nə vaxt ki, qəmlisən, işlə, bu, kədəri qovmaq üçün yeganə vasitədir. Qüssəyə batmamaq üçün işlə! Heç nə iş qədər adamı cansıxıcı boşluqdan xilas etmir. İşlərin yaxşı

gedəndə, müvəffəqiyyət qazananda da işlə! «Müvəffəqiyyətdən başgicəllənmə» xəstəliyinə qarşı işləməkdən başqa dərman yoxdur.

*İ.E.Beker*

* * *

Dənizin dibində incilər və daşlar qarışıq halda olur. Fəzilətlər də belədir. Onlar da eyiblər və qüsurların arasında olur. Onları tapıb üzə çuxarmaq hünər istəyir.

*Cəlaləddin Rumi*

* * *

İstedad işə məhəbbət hissindən inkişaf edir və hətta ola bilər ki, mahiyyətcə istedad yalnız işə məhəbbətdir.

*M.Qorki*

* * *

Əmək zülmət içində bir işıqdır, qəlbə qüvvətdir.

*M.Hadi*

* * *

Təcrübə fəaliyyətlə qazanılıb, zamanla təkmilləşir.

*V.Şekspir*

* * *

Elə bir namuslu əmək yoxdur ki, əvvəl-axır mükafatlandırılmasın.

*O.Balzak*

* * *

İnsanın ləyaqəti onun əməyi ilə müəyyən olunur.

*R.Vaqner*

* * *

Tər – əməyin göz yaşlarıdır.

*P.Krille*

* * *

Bizim hər birimiz – öz əməyimizin övladlarıyıq.

*S.M.Servantes*

* * *

Əməklə acı taleyə də qalib gələrsən.

*Finlandiya atalar sözü*

* * *

Əgər siz əmək növünü qabiliyyətinizə görə seçə bilsəniz və bütün varlığınızı ona həsr edə bilsəniz, xoşbəxtlik özü sizi axtarıb tapacaqdır... Bədən, ürək və ağıl əmək tələb edir və bu tələb o qədər qəti bir tələbdir ki, əgər müxtəlif səbəblər üzündən kimin həyatda

şəxsi əməyi yoxdursa, o, həqiqi yolunu itirir və qarşısında ölüm təhlükəsi ilə dolu iki yol açılır: həyatdan daim narazılıq, sonsuz kədər, apatiya və ya könüllü surətdə özünü tədricən məhv etmək. Hər iki yolda insan diri ikən ölür, çünki əmək – şəxsi, azad əmək elə həyatın özüdür.

*K.D.Uşinski*

* * *

*Sədi Şirazi* «Gülüstan» əsərində deyir:
«Eşşək arısına deyən yoxdur bir,
Sən ki, bal vermirsən, bu sancmaq nədir?»

* * *

İki adam havayı zəhmət çəkib, faydasız əmək sərf edir: biri yığıb yeməyən, o biri bilib etməyən.

*S.Şirazi*

* * *

Ağıllı zəhmətinə bel bağlar, ağılsız ümidinə.

*Ərəb atalar sözü*

* * *

XVII əsr fransız yazıçısı *Deni Veras* yazmışdır: «Bekarçılıq bütün qabahətlərin anası, bütün dava-dalaşların mənbəyidir»

* * *

Görkəmli yazıçı ***Jül Vern***: «Kim hələ uşaqlıqdan bilirsə ki, əmək həyatın qanunudur, kim hələ gənclikdən başa düşmüşdür ki, çörək yalnız alın təri ilə qazanılır, o, igidlik göstərməyə qadirdir; bunun üçün o, özündə həmişə iradə və qüvvə tapa bilər... İş mənim həyat funksiyamdır. Nə vaxt ki, işləmirəm, özümdə o vaxt heç bir həyat hiss etmirəm».

* * *

***F.Volter***: «İş bizi üç böyük bəladan: avaraçılıqdan, qəbahətdən və ehtiyacdan xilas edir».

* * *

Alman şairi ***F.Şiller***: «İş həyatın tələbidir, müdriklik onun məktəbidir, özündən razı qalmaq isə onun müqabilində alınan mükafatdır».

* * *

Bir gün bar götürər ağac əkənlər,
Xəznə apararlar əmək çəkənlər.

* * *

Cütcü saf tum atsa torpağa əgər,
Torpaqdan da əlbət, saf tum göyərər.

* * *

Yaxşı olar özünü işə öyrətsən bir az.
Onda inan ki, əlin özgələrə uzanmaz.

* * *

Çox zaman can yandırıb çalış, axıt inci tər,
Beləliklə, taparsan taca layaq bir gövhər.

*Nizami*

# SÖZ

* * *

Kimin olsa əgər bir şirin dili,
Tük ilə çəkər o, dalınca fili.

***Sədi Şirazi***

* * *

Söz əsər etməyənə, çubuq da kömək etməz.

***Sokrat***

* * *

Çox danışan çox səhv buraxar.

***Çin atalar sözü***

* * *

Axmaq adam onda ağıllı iş görər ki, susar.

***Çeçen atalar sözü***

* * *

İlahi feyzdən bir xəzinədir söz.

*M. Fizuli*

* * *

Bütün sənətlər içərisində ən yaxşı sənət danışmağı bacarmaqdır.

*«Qabusnamə»dən*

* * *

Ədəb sayılsa da məclisdə susmaq,
Məsləhət zamanı danışmaq gərək.
İki şey ağıla nöqsan sayılır –
Yersiz susmaq ilə yersiz söz demək...

*Sədi Şirazi*

* * *

Cəbhədə qılınc (silah), məclisdə isə gözəl nitqə malik olanlar qəhrəmandır.

*M.S.Ordubadi*

* * *

Gözəl dil yaxşı silahdır.

*A.İ.Tomas*

* * *

Xoş söz dəmir qapılar açar.

*V.Şekspir*

* * *

Xoş söz – böyük hədiyyədən qiymətlidir.

*Alman atalar sözü*

* * *

***Əli Əmirəlmöminin*** demişdir: «Hər kəs öz dilinin altında gizlənmişdir».

Bəli, söz var bir cürə deyərsən – insanın ruhu təzələnər, başqa cür deyərsən, adamın qəlbi sınar.

* * *

Bir dəfə Harun ər-Rəşid (Abbasilərin beşinci xəlifəsi) yuxuda görür ki, bütün dişləri töküləbdür. Səhəri gün yuxuyozanı çağırıb soruşur: «Bu yuxunun mənası nədir?» Yuxuyozan deyir: «Əmirəlmömininin ömrü uzun olsun, bütün qohum əqraban səndən qabaq öləcək, belə ki, heç kəs qalmayacaqdır». Harun ər-Rəşid deyir: «Bu yuxuyozana yüz çubuq vurin, o belə bir ağır xəbəri nə üçün mənim üzümə dedi, bütün qohum-qardaşım məndən əvvəl öləcəksə, onda mən kimə lazımam?!»

Sonra əmr etdi, başqa yuxuyozanı çağırdılar, yuxunu ona danışdı. Yuxuyozan dedi: «Əmirəlmöminin gördüyü bu yuxu göstərir ki, Əmirəlmöminin bütün qohum-əqraba-

sından çox yaşayacaqdır». Harun ər-Rəşid dedi: «Ağlın hökmü eynidir, təbir haman təbirdir, lakin ibarələrdə böyük fərq vardır» Əmr etdi, haman kişiyə yüz dinar versinlər.

Söz deyən gərək həm söz anladan ola, həm də söz anlayan. Əgər bir kəs dediyi sözü anlamırsa, onunla tutuquşunun nə fərqi?

* * *

Bir filosofdan soruşdular: «Nə üçün az danışır, çox qulaq asırsan?» O, dedi: «Çünki mənə iki qulaq veriblər, bir dil, yəni: iki eşit, bir din».

* * *

Susmağı bacarmayan pis danışar.

***S.Apuley***

* * *

Bildiyini danışan adam bilmədiyini də danışar.

***F.Bekon***

* * *

Ən gözəl fikir də pis ifadə edildikdə qiymətini itirir.

***F.Volter***

* * *

Ağıllı adamlardan başqa heç vaxt, heç kəslə zarafat etməyin.

*Arif Qəzvini*

* * *

Üç şey – atılmış ox, deyilmiş söz və keçmiş günlər heç vaxt qayıtmır.

*G.F.Daumer*

* * *

Hikmətə bax, gör nə demiş atalar:
«Qısa sözdə olar dərin mənalar».

*Keykavus*

* * *

Hər şeydən yüksəkdir sözün məqamı,
Hər yerdə sevərlər sahib-kəlamı.
Sözün vəsfi mənim hünərim deyil,
Sözün qiymətinə söz yox, yəqin bil.

*M.Füzuli*

# SƏRVƏT

* * *

Cahil sərvət yığar, aqil hikmət.

*Dağıstan atalar sözü*

* * *

Tayfada bir müdrik min varlıdan yaxşıdır.

*Assuri atalar sözü*

* * *

Var-dövlət yığmaqdır kimin adəti,
Doğruluq gözləmə sən ondan qəti.

*Ə.X.Dəhləvi*

* * *

Qənaət – özü dövlət deməkdir.

*«Qabusnamə»dən*

* * *

Uyma bu dünyanın cah-cəlalına,
Köçüb getmişləri sal xəyalına.

*«Min bir gecə» kitabından*

* * *

Varlanmaq istəyirsən – qənaətcil ol,
Şöhrətlənmək istəyirsənsə səxavətli ol.

*İndoneziya atalar sözü*

* * *

İşlərin asan olar, olsan tamahdan azad,
Qənaətə başladın, ev-eşik oldu abad!

*«Qabusnamə»dən*

* * *

Xərcini az elə, yoxdursa gəlir,
«Dəniz mahnısı»nda belə deyilir:
Yağmasa dağlara əgər yağış, qar,
Bir ilin içində Dəclə quruyar.

*S.Şirazi. «Gülüstan»*

* * *

Belə nağıl edirlər ki, bir filosof öz mal-dövləti, şan-şöhrəti ilə fəxr edən bir varlının evində imiş, söhbət vaxtı tüpürməyi gəlir, sağa-sola baxır, münasib bir yer tapmadığı üçün ağzına yığılmış tüpürcəyi ev sahibinin üzünə tüpürür. Orada olanlar məlamət və

məzəmmətə başlayırlar. *Filosof* deyir: «Ədəb və nəzakət qaydaları tələb edir ki, tüpürcək ən çirkin və murdar yerə tüpürülsün, mən nə qədər ətrafıma göz gəzdirdimsə, nadanlıqda şöhrət tapmış bu kişinin üzündən daha murdar və çirkin yer tapmadım».

* * *

***Məhəmməd Peyğəmbər***: «Nəsibindən danışma, (həsəbindən) əməlindən danış».

* * *

«Adamların ən yaxşısı olmaq üçün varından müstəhəqq adamlara pay ver, başqalarının malında isə gözün olmasın. Etibarlıqda, ad qazanmaqda öz malını özününkü bil, özgə malını özgəninki».

* * *

«...Borc istəməyi ən böyük rəzalət və həyasızlıq hesab et, bacardıqca özün də heç kəsə... borc vermə, xüsusilə, dostlara, çünki dostlardan borcu geri istəmək ən ağır işdir. Lakin borc verdikdə onu artıq özününkü hesab etmə, ürəyində elə tut ki, o pulu dostuna bağışlayıbsan. Özü qaytarmayınca istəmə ki, bunun nəticəsində dostluq pozulmasın, çünki dostu düşmən etmək asandır».

*«Qabusnamə»dən*

* * *

Kisəni həddən artıq doldurmaq onun yırtılması ilə nəticələnir.

*S.M.Servantes*

* * *

Nəfsə hakimlik böyük bir ölkəyə hakimlik qədər çətin və vacibdir.

*Sokrat*

# SÜLH

* * *

Atəşi üfürsən alışıb yanar,
Suya bassan sönər, onu aşikar.

* * *

Haqq sözü eşitmək istəməyənlər
Ağlını itirib öləcək hədər.

* * *

Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhündən xeyir olmuş, kinindən ziyan.

* * *

Madam ki, sülh ilə göyərər dilək,
Döyüşə at çapmaq daha nə gərək.

*Nizami*

* * *

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.

*H.Cavid*

* * *

Yaxşı dinlə sən bu sözü, ey könül,
Onu demiş arif, hüşyar adamlar:
«Düşmənçilik xəncərini siyirən,
Düşmənçilik qılıncından məhv olar!»

*Ə.Cami*

* * *

Kim tez qılınc çəkib etsə yamanlıq,
Əlini dişləyib çəkər peşmanlıq.

*Sədi*

* * *

Birilə köhnədən olarsa kinin,
Kökünü qazıma onun nəslinin.
Atayçın oğuldan alma intiqam,
Çalış dost olasan onunla müdam.

*Nizami*

# GƏNCLİK, QOCALIQ, AXİRƏT

* * *

Həyat dünyasıdır hər şeydən üçtün,
Cavanlıq günüdür ən qiymətlə gün.
Dünyada həyatdan yaxşı şey nədir?
Gənclik günü ömrə bir nümunədir.

*Nizami*

* * *

***İran şahı*** məşhur ***Keyxosrov*** məzar daşlarına bu sözləri yazdırmışdır: «Ey insan oğlu! Kim olursan ol, haradan gəlirsən gəl, bu məzara nəzər yetir. Burada İran imperiyasının yaradıcısı şah Keyxosrov yatır. Yığdığı sərvətdən ona cəsədini örtən bu kiçik torpaq parçasından başqa bir şey qalmamışdır».

* * *

Gənclik ay işıqlı gecələr kimidir. Ağıllı adamlar bu gecələr yatmazlar.

*Hüman Təbrizi*

* * *

Həyat-nə əzabdır, nə də əyləncə, həyat işdir, özü də elə iş ki, siz onu görməli və namusla axıra çatdırmalısınız.

*A.Toksvil*

* * *

İnsan şah və yaxud hakim kimi yaşaya bilər, lakin o, insan kimi ölməlidir.

*C.Uebster*

* * *

Gənclik-arzu, inam, igidliyə həvəs deməkdir. Gənclik-lirika və romantikadır. Bu, gələcək üçün tükənməz arzulardır. Bu gün yaxşı əməllərin başlanğıcıdır.

*Nazim Hikmət*

* * *

Gənclikdə qazanılan bilik, qocalıqda müdriklik deməkdir.

*İngilis atalar sözü*

* * *

Cavanlıqda dözümlü olan, qocalıqda xoşbəxt olar.

*Monqol atalar sözü*

* * *

Elə ölənlər var ki,
Həmişə sağ, diridir.
Elə sağlar da var ki,
Min ölünün biridir.

*M. Şeyxzadə*

* * *

Ehtiyatsız cavan xəstə qocadan tez ölər.

*Madaqaskar atalar sözü*

* * *

***Valter Skott*** ölüm ayağında olarkən qulluqçusunu çağırıb demişdir:

- Əzizim, yaxşı insan ol! Fəzilətli insan ol! Bu yatağa düşdüyün zaman bundan artıq heç bir şey sənə təsəlli verməyəcəkdir.

* * *

Çox yeyən çox yaşamaz, ömrü gödəkdir zəlinin,
Qan soran tez itirər öz qanının cövhərini.

*Nizami*

* * *

Uzaqdan anlamazsan, qocalıq nə deməkdir,
Qocalmasan, duymazsan ömür nəyə gərəkdir?!

*Nizami*

* * *

Qəhrəmanlıqla ölmək insana əbədi həyat qazandırır.

*C.Bruno*

* * *

***Zülqərneyn (Makedoniyalı İsgəndər)*** dünyanı zəbt etdikdən sonra - vəsiyyətində deyir: «...məni tabuta qoyun, tabutda deşik açıb mənim əllərimi o deşikdən xaricə çıxarın, əlim açıq olduğu halda aparın, qoy camaat görsün ki, bütün dünyanı aldıq, lakin əliboş gedirik. Qəsb etdik və tərk etdik. Hər şeyi bu dünyada qoyuruq; aldıq, lakin saxlaya bilmədik. Bir də anama deyin ki, istəyirsə ruhum şad olsun, mənə elə adamla yas saxlasın ki, onun ya heç bir əzizi ölməmiş olsun, ya özü əbədi yaşayacağına ümid bəsləsin».

* * *

Ölüm hamı üçün labüddur. ***S.Smaylsın*** dediyi kimi, «biz hər gün məzarlarımızı dişlərimizlə qazmaqdayıq. Həyatın rəmzi qum saatıdır. Ondakı qum dənələri axa-axa tükəndiyi kimi, ömrümüz də tədricən tükənir».

* * *

***Bir əxlaqçı yazır***:

«İnsanlara bu torpaq üzərində yaşamaq üçün ayrılan vaxt çox qısadır, lakin əbədiliyi də elə bu qısa zaman ərzində qazanmaq mümkündür. Unutmamalıyıq ki, qalib gəlinməsi lazım olan bir çox düşmənlərimiz, qarşısı alınması lazım gələn bir çox pisliklər, qəbahətlər, dəf olunmalı bir çox təhlükələr, aradan qaldırılmalı bir çox çətinliklər, ödənilməsi lazım gələn bir sıra ehtiyaclar, edilməsi lazım gələn bir çox yaxşılıqlar vardır».

* * *

Bir müəllimin oğlu xəstələndi və can verməyə başladı. Müəllim dedi: «Mürdəşiri çağırın onu yusun». Dedilər: «Hələ ölməyibdir». Dedi: «Eybi yoxdur, siz onu yuyub qurtarana qədər o da ölüb qurtarar».

* * *

Xeyir-bərəkət qocalardadır.

*Məhəmməd Peyğəmbər*

* * *

Dünyada insan üçün ən böyük ləzzət yaxşı ad qoyub getməkdir ki, belə bir adı da yaxşı əməllərin müqabilində əldə etmək olar.

*M.F.Axundov*

# MÜXTƏLİF

* * *

İnsan yer üzünün zinətidir
İnam ən qüdrətli yaradıcı qüvvədir.

*M. Qorki*

* * *

Görmək və hiss etmək mövcud olmaqdır, fikirləşmək isə yaşamaqdır.

*Vilyam Şekspir*

* * *

Müdrik adamlar deyiblər: «Abadlıq istəyirsinizsə çalışqan olun, dövlət istəyirsinizsə qənaətcil olun, çox dost istəyirsinizsə təvazökar olun».

* * *

Əgər gözəllik «ictimai vicdandan» məhrumdursa, o gözəllik deyildir.

***D.İ. Pisaryev***

* * *

Həyat- bal ilə zəhərin uyuşmasıdır.

***S.Apuley***

* * *

Dünyada üç şey təhlükəlidir:
Bıçaq uşaq əlində, hakimiyyət axmaq əlində və tərif yaltaq dilində.

***Monqol xalq məsəli***

* * *

Lal olmaq yalan danışmaqdan, pəltəg olmaq – söyüş söyməkdən, yoxsulluğa dözmək – oğurluqla mal toplamaqdan yaxşıdır.

***«Kəlilə və Dimnə»dən***

* * *

Üç işdə qənaətcil ol: sevgidə, yeməkdə və dövlət yığmaqda. Üç işdə qənaətcil olma: təhsildə, xeyirxahlıqda və səxavətdə.

***Hind zərb məsəli***

* * *

Fənəri arxasında gəzdirən öz yoluna kölgə salar.

***R. Taqor***

* * *

Üç dərdə çarə yoxdur: tənbəllikdən doğan yoxsulluğa, həsəddən doğan düşmənçiliyə, qocalıqdan doğan xəstəliyə.

*Ərəb atalar sözü*

* * *

Orta hədd qızıl həddir. Onu bəyənin və ondan kənara çıxmayın!

*Aristotel*

* * *

Filləri qovmuşdur çeşmədən dovşan,
Kiçik görünməsin gözünə düşmən,
Kiçik bilmə onu, kim düşmənindir,
Nərdi xam adamdan udmaq çətindir.

*Nizami*

* * *

Pul qiymətlidir, insan həyatı ondan da qiymətlidir, vaxt isə hər şeydən qiymətlidir.

*A.V.Suvorov*

* * *

Üç şey əbədi yaşamaz: - mal ticarətsiz, elm mübahisəsiz və hökmdar siyasətsiz.

*Atalar sözü*

* * *

Qəzəb – qısamüddətli dəlilikdir.

*F.Horatsi*

* * *

Var-dövlət olmasa qəm çəkər insan,
Olanda rahatlıq yox olur ondan.
Xülasə, belədir bu qoca dünya,
Əzabdır olsa da, ya olmasa da.

*Sədi Şirazi «Gülüstan»*

* * *

Bütöv seçilməzdi kəm olmasaydı,
Zil heç duyulmazdı bəm olmasaydı,
Nəşənin qədrini bilməzdi insan,
Qüssə olmasaydı, qəm olmasaydı.

*M.Rəhim*

* * *

«Öz peyğəmbərindən üz döndərib başqalarının peyğəmbərinə, öz millətindən üz döndərib özgə millətə tapınanlar axmaqların axmağı, yolunu azmışların böyüyüdür».

«Ağılın qüdrəti Allaha iman gətirəndən sonra xalqı sevməklə ölçülür».

*Məhəmməd Peyğəmbər*

* * *

Ana məhəbbəti bütün hisslərdən və dünya nemətlərindən ən daimisidir.

*Məshəti Gəncəvi*

* * *

Həqiqəti yalandan ayırmaqda gülüş tez-tez böyük vasitəçi olur.

*V.Q.Belinski*

* * *

Həqiqət həmişə sakit və təvazökardır.

*N.Bula*

* * *

Həqiqətin heç bir bəzəyə ehtiyacı yoxdur.

*M.Qorki*

* * *

Həqiqət icazə gözləmədən səyahət edir.

*F.Jolio Küri*

* * *

Fırıldaq – yalanın daimi yoldaşıdır.

*C.Lokk*

* * *

Nadanların tərifədikləri adamlar yalnız nadanlar olur.

*Platon*

* * *

Bohtançı şeytanın dostudur.

*Assuri atalar sözü*

* * *

Kasıb acından ölər, varlı qorxusundan

*Assuri atalar sözü*

* * *

Hiyləgər adam siyrilmiş qılınca bənzəyir.

*Ə.Fərəc*

* * *

Hiylə və xəyanət ağacının barı müsbət və fəlakət olar.

*«Kəlilə və Dimnə»dən*

* * *

Canavarın tülküdən iti olsa da dişi,
Biclik ilə düzəlir tülkünün hər bir işi.

*Nizami*

* * *

## SALAM VERDİM – RÜŞVƏT DEYİLDİR, DEYİB ALMADILAR

İfadə xalq arasında çox geniş şəkildə işlədilən atalar sözləri kimi yayılmışdır.

Böyük Azərbaycan şairi M.Füzulinin (1498-1556) «Şikayətnamə» adlı satirik əsərindəndir. Əsərdə şair xalq malı hesab olunan vəqf pullarının məmurlar tərəfindən oğurlandığını, rüşvətxorluğu, süründürməçiliyi kəskin şəkildə tənqid etmişdir.

* * *

# TÜSTÜ PULU

Vaxtilə zəhmətkeşlərdən alınan vergi növü belə adlanmışdır.

Hələ ərəb xilafətindən çox-çox əvvəl Zaqafqaziya ölkələrində xalqdan vergi «tüstüyə» görə – yəni evin-ocağın miqdarına görə toplanırdı. Odur ki, vergidən xilas olmaq, vəziyyətini yüngülləşdirmək üçün çox zaman bir neçə ailə bir dam altında – bir evdə yaşamalı olurdular.

## ƏDƏBİYYAT

Qabusnamə, Bakı – 1989.
İpə sapa düzülməmiş incilər. Bakı – 1981.
S.Vəhdət. Nizaminin hikmət və nəsihətləri. Azərb.EA. Bakı, 1966.
Z.Göyüşov. Fəzilət və Qəbahət. Bakı, 1972.
K.D.Uşinski. Seçilmiş pedaqoji əsərləri, I cild. Moskva, 1953.
Sədi Şirazi. Gülüstan. Bakı, 1982.
Ekkerman. Höte ilə söhbətlər. Moskva, 1959.
A.O.Makovelskiy. Avesta. Bakı, 1960.
J.J.Russo. Traktatı. Moskva, 1969.
A.Q.Çernışevskiy. Seçilmiş əsərləri. 7-ci cild. Moskva, 1959.
F.Əttar. Pəndnamə. İstambul, 1969.
«Voprosı filosofii» jurnalı. Moskva, 1966.
F.Köçərli. Seçilmiş əsərləri. Bakı, 1963.
N.B.Vəzirov. Məqalə və felyetonlar. Bakı, 1966.
Əbdülrəhman Cami. Rövzələr. Bakı, 1963.
Füzulinin əsərləri.
Estetik tərbiyə. Bakı, 1972.
L.E.Bertels. Cami. Dövrü, həyatı və yaradıcılığı. Moskva, 1949.
Nizami Gəncəvi. Seçilmiş əsərləri. I,II,III cildlər. Bakı, 1991.
Azərbaycan Ensiklopediyası. 10 cilddə və s.

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş ........................................ 3
Elm ........................................ 12
Vətənpərvərlik ........................ 24
Mənəviyyat ............................. 30
Sağlamlıq ................................ 64
Dostluq .................................... 68
Əmək ....................................... 71
Söz .......................................... 78
Sərvət ...................................... 83
Sülh ......................................... 87
Gənclik, qocalıq, axirət.............. 89
Müxtəlif.................................... 95
Ədəbiyyat ................................ 102

Бәдии редактору: *Азәр*
Техники редактору: *Фариг Бабаjев*
Оператор: *Ирадә Әһмәдова*
Корректор: *Тамилла Рәсулзадә*

**ALİM NƏBİOĞLU, CANALI MİRZƏLİYEV**

# «QIZIL SÖZ – DƏRİN HİKMƏT»

«El-ALliance» şirkəti, 2003,
104 səh.

Yığılmağa verilib: 09.08.2003
Çapa imzalanıb: 26.08.2003
Sifariş № 74; Tiraj: 500; şərti çap vərəqi: 6,5
«Min bir mahnı» şirkətinin mətbəəsində
çap olunmuşdur
Tel: 39-75-06